

# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 39 (24.176)

*1 mart 2023-cü il, çərşənbə*

***Gündəlik ictimai-siyasi qəzet***

**www.serqqapisi.az**

**Qiyməti 30 qəpik**


## Prezident İlham Əliyev Kubanın vitse-prezidentinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 28-də Kuba Respublikasının vitse-prezidenti Salvador Antonio Valdes Mesanın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Prezident İlham Əliyev 2019-cu ildə Qoşulmama Hərəkatının Bakıda keçirilən zirvə görüşündə Kuba Prezidentinin iştirakını məmnunluqla xatırladı, Qoşulmama Hərəkatında Azərbaycanın sədrliyinə göstərdiyi dəstəyə görə Kuba tərəfinə minnətdarlığını bildirdi.

Dövlətimizin başçısı Qoşulmama Hərəkatını daha da inkişaf etdirmək üçün səylərini bundan sonra da davam etdirəcəyini və ölkəmizin bu Hərəkatın beynəlxalq münasibətlərdə mühüm rol oynaması istiqamətində çalışdığını vurğuladı və dedi ki, dünyada postkovid dövrü ilə bağlı geniş müzakirələrə ehtiyac var.

Prezident İlham Əliyev vurğuladı ki, ölkəmizin Qoşulmama Hərəkatına sədrliyi bu il başa çatacaq və Azərbaycan 4 il ərzində sədr ölkə olaraq yaxşı irs qoyub. Dövlətimizin başçısı bu xüsusda təşkilatın təsisatlanması, onun parlament və gənclər şəbəkəsinin yaradılması və digər təşəbbüslərimizi qeyd etdi.

Əməkdaşlığımızın inkişafı üçün böyük perspektivlərin olduğunu bildirən Prezident İlham Əliyev bunun səhiyyə sahəsində xüsusi əhəmiyyət kəsb etdiyini vurğuladı, həmçinin turizm, təhsil, kənd təsərrüfatı, mədəniyyət, əczaçılıq kimi sahələrdə əlaqələri inkişaf etdirmək üçün imkanların olduğunu dedi.

Ölkələrimizin ənənəvi dostluq münasibətlərini, beynəlxalq təşkilatlarda, o cümlədən Qoşulmama Hərəkatında sıx əməkdaşlıq etdiyini vurğulayan dövlətimizin başçısı pandemiya dövründə kubalı həkim və tibb işçilərinin Azərbaycanda fəaliyyətinin yüksək qiymətləndirildiyini dedi, bu amilin ikitərəfli əlaqələrimizin inkişafına əsaslı töhfə verdiyini vurğuladı.

Kubanın vitse-prezidentinin səfərinin münasibətlərimizin genişləndirilməsinə əlavə təkan verəcəyinə ümidvar olduğunu bildirən Prezident İlham Əliyev Azərbaycana səfərin onda xoş təəssüratla yadda qalacağına əminliyini ifadə etdi.

Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun zirvə görüşündə iştiraka dəvətə və qəbula görə minnətdarlığını bildirən Salvador Antonio Valdes Mesa, ilk növbədə, Kuba Prezidenti Migel Dias-Kanel Bermudesin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Kuba Prezidentinə çatdırmağı xahiş etdi və onunla görüşünü məmnunluqla xatırladığını bildirdi.

Qonaq ənənəvi dostluq münasibətlərimizin inkişafında Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və Fidel Kastronun mühüm rol oynadıqlarını qeyd etdi. O bu il Ulu Öndərin anadan olmasının 100 illiyinin qeyd edildiyini xüsusi vurğuladı.

Salvador Antonio Valdes Mesa ölkələrimiz arasında münasibətlərin daha da inkişafında Kuba tərəfinin də ciddi siyasi iradəsinin olduğunu dedi.

Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyinin COVID-19-a qarşı mübarizə kimi çətin bir dövrə təsadüf etdiyini, lakin ölkəmizin təşkilata çox fəal və uğurlu sədrliyini davam etdirdiyini deyən qonaq Qoşulmama Hərəkatının inkişafı üçün ölkəmizin böyük işlər gördüyünü, təşkilata üzv dövlətlərə dəstəyini əsirgəmədiyini xüsusi vurğuladı və buna görə təşəkkürünü bildirdi.

Kubanın vitse-prezidenti dedi ki, beynəlxalq təşkilatlar çərçivəsində də ölkələrimiz arasında sıx əlaqələr mövcuddur və Kubanın G77-nin sədri qismində əməkdaşlığımızı dərinləşdirmək və bu iki təsisat arasında münasibətlərin inkişafında maraqlı olduğunu, Cənub-Cənub əməkdaşlığının dərinləşməsi üçün çalışdığını qeyd etdi.

Qonaq ölkəsinin illər ərzində blokadaya məruz qaldığını, amma Kuba xalqının mübarizə və azadlıq əzminin tükənmədiyini vurğuladı, BMT Baş Assambleyasında Kuba ilə əlaqədar təqdim olunan qətnamələrə göstərdiyi dəstəyə görə Azərbaycana təşəkkürünü bildirdi.

Dövlətimizin başçısı Azərbaycan və Kuba xalqlarının azadlıq uğrunda mübarizlik əzmlərinin oxşar cəhətlərdən olduğunu qeyd etdi, xalqımızın işğal və təcavüzlə heç zaman barışmadığını, öz torpaqlarımızı 30 ilə yaxın davam edən işğaldan azad etdiyimizi diqqətə çatdırdı.

Prezident İlham Əliyev dedi ki, Kuba xalqı dünyaya sübut etdi ki, azadlıq uğrunda mübarizədə bütün məhrumiyyətlərə dözüb və bizim Qələbəmizdə də Kuba xalqında olduğu kimi, mübarizlik hissi mühüm rol oynayıb. Bu oxşarlıq isə xalqlarımızı bir-birinə daha da bağlayır.

**AZƏRTAC**

## *“Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi humanist siyasət”* mövzusunda tədbir olub



*Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyi münasibətilə dünən Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin Qarışıq Rejimli Cəzaçəkmə Müəssisəsində tədbir keçirilib.*

Tədbirdə xidmətin rəis müavini vəzifəsini icra edən ədliyyə polkovnik-leytenantı Əli Rəhimov “Ulu Öndər Heydər Əliyevin cəza-icra siyasəti” barədə ətraflı məlumat verib. Bildirib ki, Ümummilli Liderin siyasi kursunun prioritet sahələrindən biri də insan hüquq və azadlıqlarının müdafiəsi idi. Respublikamızda insan, vətəndaş hüquq və azadlıqlarının yüksək səviyyədə qorunması, vətəndaşların layiqli həyat səviyyəsinin təmin edilməsi, eləcə də humanizm siyasətinin həyata keçirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilib. Humanizm prinsiplərinə xidmət edən xeyirxah tədbirlərin keçirilməsi, məhkum olunmuş şəxslərin əfv olunması və ya barələrində amnistiya tətbiq olunması, onlara həyatlarını yenidən qurmaları üçün şans verilməsi ənənəyə çevrilib. Çıxışda ölkəmizdə Ümummilli Lider Heydər Əliyev tərəfindən humanizm siyasəti çərçivəsində həyata keçirilən çoxsaylı tədbirlərdən və bu siyasətin dövlətimizin başçısı tərəfindən uğurla davam etdirilməsindən danışılıb.

“Cəza siyasətinin humanistləşdirilməsi və insan hüquqları” mövzusunda İnsan Hüquqları üzrə Müvəkkilin (Ombudsmanın) İnsan hüquqlarının müdafiəsi şöbəsinin müdiri Vahidə Bayramova çıxış edib. Ulu Öndər Heydər Əliyevin hakimiyyətdə olduğu dövrdə cəmiyyətdə humanizm ənənələrinin təşəkkül tapması və möhkəmlənməsində gördüyü işlər, bu sahədəki xidmətləri barədə məlumat verib.

Tədbirin sonunda iştirakçılar Ümummilli Liderə həsr olunmuş “Xalqa bağışlanan ömür” adlı sənədli filmə baxıblar.

***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin mətbuat xidməti***

## S.İ.Bəktaşinin Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Səadət İnayət qızı Bəktaşi Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri təyin edilsin.
2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 28 fevral 2023-cü il*

## X.X.Dadaşovanın Naxçıvan Muxtar Respublikası kənd təsərrüfatı nazirinin müavini təyin edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Xəyalə Xalıqverdi qızı Dadaşova Naxçıvan Muxtar Respublikası kənd təsərrüfatı nazirinin müavini təyin edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini** **Azər ZEYNALOV**
*Naxçıvan şəhəri, 28 fevral 2023-cü il*

## F.Ə.Həsənovun Naxçıvan Muxtar Respublikası kənd təsərrüfatı nazirinin müavini vəzifəsindən azad edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Fikrət Əyyub oğlu Həsənov Naxçıvan Muxtar Respublikası kənd təsərrüfatı nazirinin müavini vəzifəsindən azad edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini** **Azər ZEYNALOV**
*Naxçıvan şəhəri, 28 fevral 2023-cü il*

## Naxçıvan Muxtar Respublikası kənd təsərrüfatı nazirinin vəzifələrini müvəqqəti icra etmək səlahiyyətinin verilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Muxtar Respublikası kənd təsərrüfatı nazirinin vəzifələrini müvəqqəti icra etmək səlahiyyəti nazir müavini Xəyalə Xalıqverdi qızı Dadaşovaya verilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini** **Azər ZEYNALOV**
*Naxçıvan şəhəri, 28 fevral 2023-cü il*

## B.S.Bayramovun Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı naziri vəzifəsindən azad edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Bəhruz Surxay oğlu Bayramov Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı naziri vəzifəsindən azad edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini** **Azər ZEYNALOV**
*Naxçıvan şəhəri, 28 fevral 2023-cü il*

## Nazirlər Kabineti fevral ayının son 15 günü ərzində bir sıra qərarlar qəbul edib

Nazirlər Kabinetinin 2023-cü il 17 fevral tarixli Qərarı ilə Qapalı və sosialyönlü dövlət müəssisələri üçün dövlət büdcəsinin vəsaiti hesabına alınan ərzaq məhsulları olan taxılın, un məhsullarının, meyvə və tərəvəzlərin, süd və süd məhsullarının, yağların, qənnadı məmulatlarının, ədviyyatların, paxlalıların, ət və balıq məhsullarının, eləcə də digər ərzaq məhsullarının qiymətləri təsdiq edilmişdir.

Nazirlər Kabinetinin eyni tarixli digər bir Qərarı ilə "Radiotezliklərin ayrılması, qeydiyyatı, istifadəsi və ödənişlərin təyin olunması Qaydaları"nın təsdiq edilməsi haqqında Qərarı ləğv edilmişdir. Bundan sonra Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq Qərarı ilə təsdiq edilmiş Qaydalara əsasən həyata keçiriləcəkdir.

Eləcə də Nazirlər Kabinetinin 2023-cü il 24 fevral tarixli Sərəncamına əsasən Culfa rayon inzibati ərazi vahidinin sərhədləri daxilində, "Darıdağ" massivində yerləşən dövlət ehtiyat fondu torpaqlarına aid olan, kənd təsərrüfatına yararsız 2,33 hektar torpaq sahəsi sənaye, nəqliyyat, rabitə, müdafiə və digər təyinatlı torpaqlar kateqoriyasına aid edilmişdir.

Həmçinin Nazirlər Kabinetinin 2023-cü il 27 fevral tarixli Qərarı ilə "Naxçıvan Muxtar Respublikasının cəzaçəkmə müəssisələrində cəza çəkən narkoloji xəstə məhkumların məcburi müalicəsinin aparılması Qaydaları"nın təsdiq edilməsi haqqında" Qərarı ləğv edilərək Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarlarına uyğunlaşdırılmışdır.

Nazirlər Kabinetinin 2023-cü il 27 fevral tarixli Sərəncamına əsasən Naxçıvan Muxtar Respublikasının Kənd Təsərrüfatı Nazirliyi "Elektron kənd təsərrüfatı" informasiya sisteminə qoşulanadək kənd təsərrüfatı məhsulları istehsalçılarına subsidiyaların verilməsi Azərbaycan Respublikası Prezidentinin müvafiq Fərmanı ilə təsdiq edilmiş "Kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması Qaydası"na uyğun olaraq həyata keçiriləcəkdir.

Nazirlər Kabinetinin 2023-cü il 28 fevral tarixli Qərarı ilə "Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin xüsusi rütbəsi olan əməkdaşlarının, dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə maaşlarının və hərbi qulluqçularının xüsusi rütbəsi olan əməkdaşlarının hərbi (xüsusi) rütbəyə görə maaşlarının məbləğləri"nin təsdiq edilməsi haqqında" Qərarında dəyişiklik edilmişdir. Dəyişikliyə görə Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin dövlət qulluqçusu olmayan mülki işçilərinin Vahid Tarif Cədvəli üzrə aylıq vəzifə maaşlarının məbləğləri təsdiq edilmişdir.

Qəbul olunan normativ-hüquqi aktların tam mətni ilə Naxçıvan Muxtar Respublikasının Hüquqi Aktların Dövlət Reyestrində *(www.huquqiaktlar.nakhchivan.az)* tanış olmaq mümkündür.

*Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi və İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) tərəfindən Körpələr Evi və Ailələrə Dəstək Mərkəzində "Ümummilli Lider Heydər Əliyev və uşaq hüquqları" mövzusunda tədbir keçirilib.*

## *"Ümummilli Lider Heydər Əliyev və uşaq hüquqları" mövzusunda tədbir keçirilib*



Tədbiri giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin əməkdaşı Səbuhi İbrahimov bildirib ki, Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə qəbul edilmiş Azərbaycan Respublikası Konstitusiyasının 17-ci maddəsinə əsasən uşaqların qayğısına qalmaq və onları tərbiyə etmək valideynlərin borcudur. Bu borcun yerinə yetirilməsinə dövlət nəzarət edir. Uşaqları onların həyatına, sağlamlığına və ya mənəviyyatına təhlükə törədə bilən fəaliyyətə cəlb etmək qadağandır. Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarət edir.

Cəmiyyətin əsas özəyi olan ailənin bütün üzvlərinin, xüsusən də uşaqların inkişafı və rifahının müdafiə edilməsi, dəstəklənməsi və onların tam inkişafına münbit şərait yaratmaq məqsədilə 20 noyabr 1989-cu il tarixdə BMT-nin Baş Məclisi tərəfindən "Uşaq Hüquqları haqqında Konvensiya" qəbul olunub.

Bildirilib ki, Azərbaycan Respublikası 1992-ci ilin iyul ayının 21-də həmin Konvensiyanı təsdiq edərək "Uşaq Hüquqları haqqında Konvensiya"ya qoşulub. Konvensiyanın prinsipləri əsas tutularaq 1998-ci il 9 may tarixdə "Uşaq hüquqları Haqqında" Azərbaycan Respublikası Qanunu qəbul edilib.

Azərbaycan Respublikasının ayrılmaz parçası olan muxtar respublikada uşaqların sağlam şəkildə böyüməsi üçün hər cür şərait yaradılıb. Naxçıvan Muxtar Respublikasında yaşayan uşaq əhalisinə Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanası, Körpələr Evi və Ailələrə Dəstək Mərkəzi, Şərur və Ordubad Rayon Uşaq Xəstəxanaları kimi tibb müəssisələri xidmət göstərməkdədir.

Naxçıvan Muxtar Respublikası İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatının əməkdaşı Aysel Nəcəfli çıxış edərək uşaq hüquqlarının həyata keçirilməsinə Ombudsman Aparatı tərəfindən necə nəzarət edildiyi, uşaq müəssisələrinə baş çəkmələrin hansı hallarda aparıldığı haqqında məlumat verib.

Tədbirin sonunda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası***
***Səhiyyə Nazirliyinin mətbuat xidməti***

*Tarixi Zəfərlə bitən 44 günlük Vətən müharibəsindən sonra Azərbaycanın regionda yaratdığı yeni reallıqlardan biri də hazırda ən çox diqqət mərkəzində olan Zəngəzur dəhlizinin açılmasıdır. Azərbaycan, Rusiya və Ermənistan liderlərinin birgə imzaladıqları 2020-ci il 10 noyabr anlaşmasına əsasən Azərbaycanın qədim Zəngəzur ərazisindən Naxçıvana nəqliyyat və kommunikasiya xətlərinin açılması bu dəhlizin əsas hissəsini təşkil edir. Azərbaycan və Türkiyə arasında imzalanan Şuşa Bəyannaməsində də bu məsələyə xüsusilə toxunulur və dövlət başçısı cənab İlham Əliyevin sözləri ilə desək:* ***"Bəyannamədə Zəngəzur dəhlizinin açılması ilə bağlı çox açıq ifadələr öz əksini tapmışdır. Bu da İkinci Qarabağ savaşından sonra yaranmış yeni geosiyasi vəziyyətin nəticəsidir. Bu gün biz Türkiyəni və Azərbaycanı dəmir yolu ilə, avtomobil yolu ilə birləşdirəcək Zəngəzur dəhlizi haqqında nəinki danışırıq, bu dəhlizi əməli işlərlə yaradırıq. Müttəfiqlik haqqında imzalanmış Birgə Bəyannamədə bu məsələnin əks olunması böyük məna daşıyır".***

## Zəngəzur dəhlizinin açılması ilə əlaqədar genişmiqyaslı işlər aparılır

### *Dəmir yolları bu sahədə mühüm infrastruktur layihəsidir*

Ümumiyyətlə, Zəngəzur dəhlizi layihəsi, təkcə Naxçıvanla Azərbaycanın digər bölgələri arasında nəqliyyat körpüsü deyil, region, həmçinin Çin və Orta Asiya ölkələrini Azərbaycan-Türkiyə vasitəsilə Avropanın tranzit-nəqliyyat xəttinə bağlayır. Azərbaycana gəldikdə isə Zəngəzur dəhlizi ölkəmizi Şərq və Qərbin mühüm iqtisadi tərəfdaşına çevirir, o cümlədən ölkəmizin ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasını faktiki olaraq nəqliyyat-kommunikasiya blokadasından çıxarır.

Prezident cənab İlham Əliyev 31 Dekabr 2022-ci ildə – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə Azərbaycan xalqına müraciətində il ərzində ölkə həyatında baş verən mühüm hadisələri xatırlatmaqla yanaşı, görüləcək mühüm işlərin anonsunu da verdi. Bunlardan biri də Zəngəzur dəhlizi ilə bağlı idi. Dövlət başçısının Zəngəzur dəhlizinin açılacağı ilə bağlı ən yüksək beynəlxalq kürsülərdən bəyan etdiyi prinsipial mövqe layihənin reallaşdırılmasında Azərbaycanın nə qədər qətiyyətli olduğunu bir daha ortaya qoydu. Görünən odur ki, Azərbaycan dəhlizin açılmasına mane olmaq istəyən qüvvələrin, əksinə, bu sahədə öz siyasətini uğurla davam etdirməkdədir və hazırda görülən işlər də bunu sübut edir. Bir neçə gün bundan əvvəl media nümayəndələrinin Füzuli-Cəbrayıl-Zəngilan istiqamətində səfəri də bu istiqamətdə dəmir yolu xəttinin tikintisi ilə bağlı məlumatlandırma məqsədi daşıyırdı. Horadiz-Ağbənd dəmir yolu xəttində aparılan tikinti işləri ilə tanışlıqda qəzetimizin fotomüxbiri Əsədulla Səfərovla birgə iştirak etdik.

Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva 14 fevral 2021-ci il tarixdə Füzuli, Zəngilan, Laçın və Cəbrayıl rayonlarında səfərdə olarkən Prezident cənab İlham Əliyev Füzuli rayonunda 140 illik tarixi (1880-2020) olan Horadiz-Ağbənd dəmir yolu xəttinin təməlini qoymuşdur. Bu dəmir yolu xəttinin mühüm strateji əhəmiyyəti ondadır ki, nəqliyyat infrastrukturu Azərbaycan vətəndaşlarının azad olunmuş torpaqlara gediş-gəlişinin təminatında əhəmiyyətli rol oynayacaq və ən mühüm məsələ Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında birbaşa dəmir yolu nəqliyyat əlaqəsinin yaranmasına böyük töhfə verəcək. Dövlətimizin başçısı bunun əhəmiyyətini belə vurğulamışdır: ***"Uzun fasilədən sonra Azərbaycan və onun ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası dəmir yolu ilə bir-birinə bağlanacaq və beləliklə, bizim həm strateji, həm iqtisadi, həm də siyasi məqsədlərimiz həyata keçiriləcək".***





Səfərimiz böyük bir avtobusla həyata keçirildi. Bakıdan Horadizə qədər yollar abad və rahatdır. Yeri gəlmişkən, Horadiz də Füzuli rayonu ilə birgə 1993-cü ilin 23 oktyabrında işğal edilmişdi. Lakin 1994-cü ildə Azərbaycan Ordusunun uğurlu hərbi əməliyyatından sonra yaşayış məntəqəsi işğaldan azad olunmuş, Azərbaycan Respublikası Prezidentinin 23 oktyabr 2007-ci il tarixli Fərmanına əsasən Horadizə şəhər statusu verilmişdir.



Səfərdə müşahidə etdiyimiz yerlər, daha doğrusu, dəmir yollarının çəkildiyi ərazilər, iki il bundan əvvəl işğaldan azad edilmiş yerlərdir. Horadizdən Ağbəndədək dəmir yolu xəttinin layihələndirmə və tikinti işlərinə ölkə başçısı cənab İlham Əliyevin 2021-ci il 13 mart tarixli Sərəncamına əsasən başlanılıb. Dəmir yolu xətti təkxətlidir və ox üzrə uzunluğu 110,4 kilometr, yan yollarla birlikdə 140,6 kilometrdir. Layihə üzrə 9 stansiyanın tikintisi nəzərdə tutulub. Bunlar Horadiz, Mərcanlı, Mahmudlu, Soltanlı, Qumlaq, Həkəri, Mincivan, Bartaz, Ağbənd stansiyalarıdır.





Azərbaycan Dəmir Yolları Qapalı Səhmdar Cəmiyyətinin Tikintiyə Nəzarət İdarəsinin şöbə rəisi Kənan Rzayev bizimlə söhbətində bildirdi ki, Horadizdən Ağbəndədək tikintisi aparılan dəmir yollarında 41 körpü, 22 avtomobil keçidi, 3 tunel, 2 qalereya, 4 heyvanlar üçün keçid, 253 suötürücü boru və 144 ehtiyat keçidi, o cümlədən 70 yoldəyişən, 110,4 kilometr rabitə və işarəvermə sisteminin inşası nəzərdə tutulmaqla, ümumilikdə, 469 mühəndis qurğusunun tikintisi reallaşdırılacaq. Öyrəndik ki, ox üzrə uzunluğu 110,4 kilometr olan dəmir yolu xəttinin 60 metr enində minatəmizləmə işləri tamamlanıb, genişlənmələr tələb olunan yerlərdə isə minatəmizləmə işləri davam edir.

Müsahibimiz bildirdi ki, adıçəkilən dəmir yolu xəttində tikinti işləri üç mərhələdə aparılır. Birinci mərhələ 0-30 kilometr, ikinci mərhələ 30-85 kilometr, üçüncü mərhələ isə 85-110,4 kilometr məsafəni əhatə edir. 60 kilometr uzunluğunda dəmir yolunda relslər quraşdırılıb, 300-ə yaxın mühəndis qurğularının işləri yekunlaşıb. Hazırda isə yolun 62-72-ci kilometrlərində dəmir yolunun torpaq yatağı və mühəndis qurğularının tikintisi davam etdirilir.

Onu da qeyd edək ki, bu dəmir yolu xətti, eyni zamanda Həkəri çayının üstündən keçir. Horadiz-Ağbənd dəmir yolu xəttinin 65-ci kilometrliyində çayın üzərində salınmış Həkəri körpüsü Azərbaycanda ən uzun dəmir yolu körpüsüdür. Dəmir-beton dayaqlardan inşa edilmiş 13 aşırımlı bu körpünün uzunluğu 418 metrdir. Kənan Rzyev bildirdi ki, körpünün tikintisi ilə əlaqədar Həkəri çayının istiqaməti müvəqqəti olaraq dəyişdirilib. Hazırda isə burada beton-konstruksiya işləri yekunlaşıb, torpaqbərkitmə işləri isə davam etdirilir.

Həmsöhbətim onu da bildirdi ki, Horadiz-Ağbənd dəmir yolu təkxətli olaraq layihələndirilib, ancaq sərnişin və yükdaşımalarının daha rahat hərəkəti üçün stansiyalarda dəmir yolları üçxətli olaraq planlaşdırılıb. Bu da qatarların gün ərzində fasiləsiz olaraq rahat hərəkət etməsinə imkan verəcəkdir.

Qeyd edək ki, hazırda nəzərdə tutulmuş layihə üzrə işlərin 40 faizə qədəri görülüb, ümumilikdə isə adıçəkilən istiqamət üzrə işlərin yekunlaşdırılması gələn ilin ortalarına nəzərdə tutulub. Necə deyərlər, bütün işlər plan üzrə gedir. Ölkə Prezidentinin dediyi kimi: ***"Zəngəzur dəhlizinin açılması ilə əlaqədar genişmiqyaslı işlər aparılır, dəmir yolları, avtomobil yolları çəkilir. Zəngəzur dəhlizinin açılması mütləq olmalıdır, Ermənistan bunu istəsə də, istəməsə də. Biz ortaya güclü iradə qoymuşuq, bütün işlər plan üzrə gedir. Bizim tələbimiz əsaslıdır və ədalətlidir. Azərbaycanın əsas hissəsi ilə onun ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası ilə bizim bağlantımız olmalıdır və olacaqdır".***

Sonda onu da xatırlatmaq yerinə düşər ki, 2000-ci il 12 sentyabr tarixdə Rusiya, İran və Hindistan arasında imzalanmış hökumətlərarası Saziş əsasında təməli qoyulan "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi Avropa ölkələrinin, Rusiyanın, Orta Asiya və Qafqaz regionlarının Fars körfəzi və Hindistana çıxışına, Xəzəryanı ölkələrin Qara dəniz limanları ilə ticarət əlaqələrinin inkişafına təkan verəcək. Həmin dəhliz sayəsində Avropa-Cənubi Asiya-Yaxın Şərq arasında dəmir yolu daşımaları, müvafiq olaraq dəmir yolunun istər yerli, istərsə də tranzit daşımalarından əldə etdiyi gəlirləri artacaq.

**Səbuhi HƏSƏNOV**
***Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti***
***Naxçıvan-Füzuli-Cəbrayıl-Zəngilan-Naxçıvan***

## Azərbaycan Respublikası Naxçıvan Muxtar Respublikasının Dövlət İmtahan Mərkəzi Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin tabeliyində olan müəssisələrdə vakant vəzifələrin tutulması üçün müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər 1 mart-1 aprel 2023-cü il tarixlərdə Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzinin internet portalında *(www.ndim.gov.az)* "şəxsi kabinet" bölməsinə daxil olaraq elektron müraciət formasını doldurmaqla qeydiyyatdan keçməlidirlər.

Namizədlər imtahanda iştirak üçün qanunvericiliklə müəyyən edilmiş 100 manat ödəniş məbləğini "şəxsi kabinet" vasitəsilə bank kartları ilə ödəyə bilərlər. Digər halda həmin məbləğ Dövlət İmtahan Mərkəzinin "Naxçıvanbank" Açıq Səhmdar Cəmiyyətindəki bank hesabına (AZ50NAXB36015000024840000AZN) ödənməli və ödənişə dair qəbz həftənin iş günləri saat $9^{00}$-dan $12^{30}$-dək və $14^{00}$-dan $17^{30}$-dək mərkəzə təqdim edilməlidir.

Namizəd bir neçə vakant vəzifənin tutulması üçün müraciət edə bilər.

Namizədlər elektron müraciət formasını doldurarkən iddia etdikləri vakant vəzifələrin tutulma şərtlərini nəzərə almalıdırlar.

Qeydiyyatdan keçməkdə çətinlik çəkən namizədlər Dövlət İmtahan Mərkəzinə gəlməklə müraciət edə bilərlər.

Maraqlananlar mərkəzin *(036) 545-65-71* nömrəli əlaqə telefonu və ya *office@ndim.gov.az* elektron poçt ünvanı vasitəsilə ətraflı məlumat əldə edə bilərlər.

| Vəzifə kodu | Struktur bölmə və vəzifə | Ştat sayı |
|---|---|---|
| | **Naxçıvan şəhəri üzrə:** | |
| | **"Naxçıvan Muxtar Respublika Xəstəxanası" publik hüquqi şəxs** | |
| 98010035 | Həkim-anestezioloq reanimatoloq | 2 |
| 98010046 | Həkim-cərrah | 2 |
| 98010112 | Həkim-damar cərrahı | 1 |
| 98010154 | Həkim-endoskopist bronxoskopiya üzrə | 1 |
| 98010111 | Həkim-endoskopist kolonoskopiya üzrə | 1 |
| 98010144 | Həkim-qastroenteroloq | 1 |
| 98010069 | Həkim-nefroloq | 1 |
| 98010074 | Həkim-okulist | 1 |
| 98010124 | Həkim-proktoloq | 1 |
| 98010125 | Həkim-reabilitoloq | 1 |
| 98010090 | Həkim-stomatoloq | 2 |
| 98010091 | Həkim-terapevt | 1 |
| 98010113 | Həkim-torokal cərrah | 1 |
| 98010092 | Həkim-travmatoloq | 3 |
| 98010094 | Həkim-uroloq | 1 |
| 98010043 | Həkim-üz-çənə cərrahı | 1 |
| 98010044 | Həkim-anestezioloq | 1 |
| 98010061 | Həkim-kardioloq | 1 |
| 98010065 | Həkim-LOR | 2 |
| 98010071 | Həkim-nevropatoloq | 3 |
| 98010072 | Həkim-neyrotravmatoloq | 1 |
| 98010077 | Həkim-ortoped | 1 |
| 98010084 | Həkim-psixoterapevt | 1 |
| 98010155 | Müalicəvi bədən tərbiyəsi üzrə həkim | 1 |
| 98010106 | Təcili yardım üzrə həkim | 1 |
| | **"Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanası" publik hüquqi şəxs** | |
| 98011034 | EXO üzrə həkim funksional diaqnostik | 1 |
| 98011041 | Həkim-ordinator plastik cərrah | 1 |
| 98011046 | Həkim-cərrah | 1 |
| 98011053 | Həkim-ftiziatr | 1 |
| 98011055 | Həkim-ginekoloq | 1 |
| 98011063 | Həkim-kardiorevmatoloq | 1 |
| 98011071 | Həkim-nevropatoloq | 2 |
| 98011080 | Həkim-pediatr | 5 |
| 98011092 | Həkim-travmatoloq | 1 |
| 98011098 | Qəbul otağı üzrə həkim | 1 |
| 98011108 | Uşaq müəssisələri kollektivlərində iş üzrə təşkil olunmuş pediatrik kabinə həkimi | 5 |
| | **"Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzi" publik hüquqi şəxs** | |
| 98012044 | Həkim-anestezioloq | 3 |
| 98012046 | Həkim-cərrah | 1 |
| 98012048 | Həkim-dermatovenероloq | 1 |
| 98012054 | Həkim-funksional diaqnostika USM | 1 |
| 98012067 | Həkim-metodist | 1 |
| 98012156 | Həkim-reproduktiv sağlamlıq və ailə planlaşdırılması üzrə | 1 |
| 98012094 | Həkim-uroloq | 1 |
| 98012116 | Həkim-epidemioloq | 1 |
| 98012066 | Həkim-mama-ginekoloq | 4 |
| 98012084 | Həkim-psixoterapevt | 1 |
| 98012088 | Həkim-reanimatoloq | 1 |
| 98012103 | Sahələr üzrə həkim-mama-ginekoloq | 4 |
| | **"Naxçıvan Muxtar Respublikası Kardioloji Mərkəz" publik hüquqi şəxs** | |
| 98014115 | Həkim-funksionalist | 1 |
| 98014071 | Həkim-nevropatoloq | 1 |
| | **"Naxçıvan Şəhər Təcili Tibb Mərkəzi" publik hüquqi şəxs** | |
| 98101157 | Təcili və təxirəsalınmaz tibbi yardım üzrə həkim | 1 |
| | **"Naxçıvan Muxtar Respublikası Ağciyər Xəstəlikləri Dispanseri" publik hüquqi şəxs** | |
| 98015046 | Həkim-cərrah | 1 |
| 98015080 | Həkim-pediatr | 1 |
| | **"Naxçıvan Muxtar Respublikası Duzdağ Fizioterapiya Mərkəzi" publik hüquqi şəxs** | |
| 98021064 | Həkim-laborant | 1 |
| | **Naxçıvan Muxtar Respublikası Onkoloji Mərkəzi** | |
| 98016044 | Həkim-anestezioloq | 1 |
| 98016160 | Həkim-onkoginekoloq | 1 |
| 98016075 | Həkim-onkoloq | 1 |
| 98016086 | Həkim-radioloq | 1 |
| 98016089 | Həkim-rentgenoloq | 1 |
| | **Yaqub Budaqov adına Psixi Xəstəliklər Dispanseri** | |
| 98017032 | Alkoqol sərxoşluğunu müayinə edən həkim | 1 |
| 98017064 | Həkim-laborant | 1 |
| 98017068 | Həkim-narkoloq | 1 |
| 98017082 | Həkim-psixiatr | 3 |
| 98017084 | Həkim-psixoterapevt | 1 |
| 98017101 | Məhkəmə psixiatriya və narkologiya üzrə həkim-ekspert | 2 |
| 98017102 | Sahə üzrə həkim-psixiatr | 2 |
| | **Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyi** | |
| 98018079 | Həkim-patoloq-anatom | 3 |
| | **"Naxçıvan Muxtar Respublikası Yoluxucu Xəstəliklər Mərkəzi" publik hüquqi şəxs** | |
| 98019052 | Həkim-fizioterapiya üzrə | 1 |
| 98019048 | Həkim-dermatovenероloq | 1 |
| | **"Naxçıvan Muxtar Respublikası Stomatoloji Mərkəz" publik hüquqi şəxs** | |
| 98020090 | Həkim-stomatoloq | 1 |
| 98020158 | Həkim-stomatoloq cərrah | 1 |
| | **"Zərifə Əliyeva adına Naxçıvan Şəhər Poliklinikası" publik hüquqi şəxs** | |
| 98102091 | Həkim-terapevt | 6 |
| 98102055 | Həkim-ginekoloq | 1 |
| 98102073 | Həkim-oftalmoloq | 1 |
| | **Naxçıvan Muxtar Respublikası Gigiyena və Epidemiologiya Mərkəzi** | |
| 98099161 | Həkim-epidemioloq hava limanı və gömrük məntəqələri üzrə | 1 |
| 98099117 | Sanitar həkim | 2 |
| | **Cəmi:** | **113** |
| | **Şərur rayonu üzrə:** | |
| | **"Şərur Rayon Mərkəzi Xəstəxanası" publik hüquqi şəxs** | |
| 98201044 | Həkim-anestezioloq | 2 |
| 98201045 | Həkim-bakterioloq | 1 |
| 98201049 | Həkim-endokrinoloq | 2 |
| 98201050 | Həkim-endoskopist | 1 |
| 98201061 | Həkim-kardioloq | 1 |
| 98201063 | Həkim-kardiorevmatoloq | 1 |
| 98201070 | Həkim-neonatoloq | 1 |
| 98201071 | Həkim-nevropatoloq | 1 |
| 98201073 | Həkim-oftalmoloq | 1 |
| 98201076 | Həkim-onkoloq-cərrah | 1 |
| 98201083 | Həkim-psixonarkoloq | 1 |
| 98201091 | Həkim-terapevt | 2 |
| 98201092 | Həkim-travmatoloq | 1 |
| 98201094 | Həkim-uroloq | 1 |
| 98201098 | Qəbul otağı üzrə həkim | 2 |
| 98201119 | Həkim-ftiziatr-infeksionist | 1 |
| 98201162 | Həkim-transfuzioloq | 1 |
| | **Aşağı Aralıq kənd sahə xəstəxanası** | |
| 98211098 | Qəbul otağı üzrə həkim | 1 |
| 98211090 | Həkim-stomatoloq | 1 |
| | **Aşağı Yaycı kənd həkim ambulatoriyası** | |
| 98220090 | Həkim-stomatoloq | 1 |
| | **Şəhriyar kənd həkim ambulatoriyası** | |
| 98239090 | Həkim-stomatoloq | 1 |
| | **Axura kənd həkim ambulatoriyası** | |
| 98221090 | Həkim-stomatoloq | 1 |
| 98221911 | Tibb bacısı | 1 |
| | **Siyaqut kənd həkim ambulatoriyası** | |
| 98238090 | Həkim-stomatoloq | 1 |
| | **Yengicə kənd həkim ambulatoriyası** | |
| 98241090 | Həkim-stomatoloq | 1 |
| | **Zeyvə kənd həkim ambulatoriyası** | |
| 98242090 | Həkim-stomatoloq | 1 |
| | **Kərimbəyli kənd həkim ambulatoriyası** | |
| 98229090 | Həkim-stomatoloq | 1 |
| | **Çərçiboğan kənd həkim ambulatoriyası** | |
| 98223066 | Həkim-mama-ginekoloq | 1 |
| | **Düdəngə kənd həkim ambulatoriyası** | |
| 98226090 | Həkim-stomatoloq | 1 |
| | **İbadulla kənd həkim ambulatoriyası** | |
| 98228090 | Həkim-stomatoloq | 1 |
| | **Qarxun kənd həkim ambulatoriyası** | |
| 98230080 | Həkim-pediatr | 1 |
| 98230090 | Həkim-stomatoloq | 1 |
| | **Cəlilkənd kənd həkim ambulatoriyası** | |
| 98222090 | Həkim-stomatoloq | 1 |
| 98222933 | Peyvənd tibb bacısı | 1 |
| | **Mahmudkənd kənd həkim ambulatoriyası** | |
| 98232090 | Həkim-stomatoloq | 1 |
| | **Dizə kənd həkim ambulatoriyası** | |
| 98225090 | Həkim-stomatoloq | 1 |
| | **Maxta kənd həkim ambulatoriyası** | |
| 98233066 | Həkim-mama-ginekoloq | 1 |
| 98233090 | Həkim-stomatoloq | 1 |
| | **Məmmədsabir kənd həkim ambulatoriyası** | |
| 98231090 | Həkim-stomatoloq | 1 |
| | **Oğlanqala kənd həkim ambulatoriyası** | |
| 98235090 | Həkim-stomatoloq | 1 |
| | **Püsyan kənd həkim ambulatoriyası** | |
| 98236066 | Həkim-mama-ginekoloq | 1 |
| 98236090 | Həkim-stomatoloq | 1 |
| | **Sərxanlı kənd həkim ambulatoriyası** | |
| 98237090 | Həkim-stomatoloq | 1 |
| | **Yuxarı Havuş kənd feldşer-mama məntəqəsi** | |
| 98273910 | Mama | 1 |
| | **Yeni Havuş kənd feldşer-mama məntəqəsi** | |
| 98274910 | Mama | 1 |
| | **Şahbulaq kənd feldşer-mama məntəqəsi** | |
| 98272910 | Mama | 1 |
| | **Tənənəm kənd feldşer-mama məntəqəsi** | |
| 98275910 | Mama | 1 |
| | **"Şərur Rayon Uşaq Xəstəxanası" publik hüquqi şəxs** | |
| 98202036 | Həkim-cərrah-travmatoloq | 1 |
| 98202037 | Həkim-funksional-diaqnostik (USM üzrə) | 1 |
| 98202048 | Həkim-dermatovenероloq | 1 |
| 98202049 | Həkim-endokrinoloq | 1 |
| 98202052 | Həkim-fizioterapevt | 1 |
| 98202063 | Həkim-kardiorevmatoloq | 1 |
| 98202065 | Həkim-LOR | 1 |
| 98202071 | Həkim-nevropatoloq | 1 |
| 98202073 | Həkim-oftalmoloq | 1 |
| 98202935 | Sağlam uşaqlar arasında profilaktik yardım və dispanserizasiya üzrə tibb bacısı | 1 |
| | **Şərur Rayon Gigiyena və Epidemiologiya Şöbəsi** | |
| 98299099 | Sanitar həkim qida gigiyenası üzrə | 1 |
| 98299905 | Epidemioloq köməkçisi | 1 |
| | **Cəmi:** | **63** |
| | **Babək rayonu üzrə:** | |
| | **"Babək Rayon Mərkəzi Xəstəxanası" publik hüquqi şəxs** | |
| 98301042 | Həkim-reanimatoloq-anestezioloq | 1 |
| 98301046 | Həkim-cərrah | 2 |
| 98301048 | Həkim-dermatovenероloq | 1 |
| 98301049 | Həkim-endokrinoloq | 1 |
| 98301052 | Həkim-fizioterapevt | 1 |
| 98301053 | Həkim-ftiziatr | 1 |
| 98301056 | Həkim-herontoloq | 1 |
| 98301063 | Həkim-kardiorevmatoloq | 1 |
| 98301064 | Həkim-laborant | 1 |
| 98301065 | Həkim-LOR | 1 |
| 98301069 | Həkim-nefroloq | 1 |
| 98301073 | Həkim-oftalmoloq | 1 |
| 98301075 | Həkim-onkoloq | 1 |
| 98301080 | Həkim-pediatr | 2 |
| 98301083 | Həkim-psixonarkoloq | 1 |
| 98301098 | Qəbul otağı üzrə həkim | 1 |
| 98301109 | Uşaq nevropatoloqu | 1 |
| | **Cəhri Qəsəbə Sahə Xəstəxanası** | |
| 98311070 | Həkim-neonatoloq | 1 |
| 98311095 | Həkim-USM üzrə | 1 |
| 98311098 | Qəbul otağı üzrə həkim | 1 |
| | **Nehrəm Qəsəbə Sahə Xəstəxanası** | |
| 98312098 | Qəbul otağı üzrə həkim | 2 |
| 98312066 | Həkim-mama-ginekoloq | 1 |
| 98312910 | Mama | 1 |
| | **Sirab kənd həkim ambulatoriyası** | |
| 98326080 | Həkim-pediatr | 1 |
| | **Vayxır kənd həkim ambulatoriyası** | |
| 98324090 | Həkim-stomatoloq | 1 |
| | **Gülşənabad kənd feldşer-mama məntəqəsi** | |
| 98372911 | Tibb bacısı | 1 |
| | **Babək Rayon Gigiyena və Epidemiologiya Şöbəsi** | |
| 98399099 | Qida gigiyenası üzrə sanitar həkim | 1 |
| 98399110 | Uşaq və yeniyetmə gigiyenası üzrə sanitar həkim | 1 |
| | **Cəmi:** | **31** |

| | | |
|---|---|---|
| **Ordubad rayonu üzrə:** | | |
| **"Ordubad Rayon Mərkəzi Xəstəxanası" publik hüquqi şəxs** | | |
| 98401055 | Həkim-ginekoloq | 1 |
| 98401042 | Həkim-reanimatoloq-anestezioloq | 1 |
| 98401046 | Həkim-cərrah | 1 |
| 98401048 | Həkim-dermatovenerolog | 1 |
| 98401049 | Həkim-endokrinoloq | 1 |
| 98401052 | Həkim-fizioterapevt | 1 |
| 98401053 | Həkim-ftiziatr | 1 |
| 98401059 | Həkim-infeksionist izolyasiya üzrə | 1 |
| 98401067 | Həkim-metodist | 1 |
| 98401070 | Həkim-neonatoloq | 1 |
| 98401071 | Həkim-nevropatoloq | 1 |
| 98401073 | Həkim-oftalmoloq | 1 |
| 98401075 | Həkim-onkoloq | 1 |
| 98401083 | Həkim-psixonarkoloq | 1 |
| 98401092 | Həkim-travmatoloq | 1 |
| 98401098 | Qəbul otağı üzrə həkim | 4 |
| 98401104 | Təcili tibbi yardım həkimi | 2 |
| 98401909 | Laborant | 1 |
| 98401911 | Tibb bacısı | 3 |
| 98401912 | Tibbi qeydiyyatçı | 1 |
| **Dəstə kənd həkim ambulatoriyası** | | |
| 98421064 | Həkim-laborant | 1 |
| 98421080 | Həkim-pediatr | 1 |
| 98421090 | Həkim-stomatoloq | 1 |
| **Dırnıs kənd həkim ambulatoriyası** | | |
| 98422080 | Həkim-pediatr | 1 |
| 98422090 | Həkim-stomatoloq | 1 |
| **Üstüpü kənd həkim ambulatoriyası** | | |
| 98427090 | Həkim-stomatoloq | 1 |
| **Tivi kənd həkim ambulatoriyası** | | |
| 98426090 | Həkim-stomatoloq | 1 |
| 98426911 | Sahə üzrə tibb bacısı | 1 |
| 98426912 | Tibbi qeydiyyatçı | 1 |
| **Yuxarı Əylis kənd həkim ambulatoriyası** | | |
| 98429090 | Həkim-stomatoloq | 1 |
| 98429933 | Peyvənd tibb bacısı | 1 |
| 98429912 | Tibbi qeydiyyatçı | 1 |
| **Biləv kənd həkim ambulatoriyası** | | |
| 98420933 | Peyvənd tibb bacısı | 1 |
| **Nüsnüs kənd həkim ambulatoriyası** | | |
| 98425090 | Həkim-stomatoloq | 1 |
| **Yuxarı Əndəmic kənd həkim ambulatoriyası** | | |
| 98432090 | Həkim-stomatoloq | 1 |
| 98432910 | Mama | 1 |
| 98432912 | Tibbi qeydiyyatçı | 1 |
| **Vənənd kənd həkim ambulatoriyası** | | |
| 98428090 | Həkim-stomatoloq | 1 |
| **Sabirkənd kənd həkim ambulatoriyası** | | |
| 98431090 | Həkim-stomatoloq | 1 |
| 98431933 | Peyvənd tibb bacısı | 1 |
| **Bist kənd həkim ambulatoriyası** | | |
| 98430090 | Həkim-stomatoloq | 1 |
| **Nəsirvaz kənd feldşer-mama məntəqəsi** | | |
| 98476910 | Mama | 1 |
| **Kələki kənd feldşer-mama məntəqəsi** | | |
| 98472910 | Mama | 1 |
| **Kotam kənd feldşer-mama məntəqəsi** | | |
| 98473910 | Mama | 1 |
| **Nürgüt kənd feldşer-mama məntəqəsi** | | |
| 98474910 | Mama | 1 |
| **Pəzməri kənd feldşer-mama məntəqəsi** | | |
| 98475910 | Mama | 1 |
| **Xurs kənd feldşer-mama məntəqəsi** | | |
| 98471910 | Mama | 1 |
| **Əlahi kənd feldşer-mama məntəqəsi** | | |
| 98477910 | Mama | 1 |
| **"Ordubad Rayon Uşaq Xəstəxanası" publik hüquqi şəxs** | | |
| 98401159 | EEQ üzrə həkim-nevropatoloq | 1 |
| 98401036 | Həkim-cərrah travmatoloq | 1 |
| 98401054 | Həkim-funksionalist-USM | 1 |
| 98401073 | Həkim-oftalmoloq | 1 |
| 98401064 | Həkim-laborant | 1 |
| **Ordubad Rayon Gigiyena və Epidemiologiya Şöbəsi** | | |
| 98499045 | Bakterioloq | 1 |
| 98499099 | Qida gigiyenası üzrə sanitar həkim | 1 |
| 98499110 | Uşaq və yeniyetmə gigiyenası üzrə sanitar həkim | 1 |
| **Cəmi:** | | **62** |

| | | |
|---|---|---|
| **Culfa rayonu üzrə:** | | |
| **"Culfa Rayon Mərkəzi Xəstəxanası" publik hüquqi şəxs** | | |
| 98501031 | Baş pediatr | 1 |
| 98501047 | Həkim-dermatoloq | 1 |
| 98501049 | Həkim-endokrinoloq | 1 |
| 98501052 | Həkim-fizioterapevt | 1 |
| 98501053 | Həkim-ftiziatr | 1 |
| 98501065 | Həkim-LOR | 1 |
| 98501067 | Həkim-metodist | 1 |
| 98501080 | Həkim-pediatr | 3 |
| 98501092 | Həkim-travmatoloq | 1 |
| 98501098 | Qəbul otağı üzrə həkim | 1 |
| 98501106 | Həkim-təcili yardım üzrə | 1 |
| 98501160 | Həkim-psixonevroloq | 1 |
| 98501163 | Həkim-infeksionist-izolyator üzrə | 1 |
| **Saltaq kənd həkim ambulatoriyası** | | |
| 98532090 | Həkim-stomatoloq | 1 |
| **Ərəfsə kənd həkim ambulatoriyası** | | |
| 98522090 | Həkim-stomatoloq | 1 |
| **Milax kənd həkim ambulatoriyası** | | |
| 98528090 | Həkim-stomatoloq | 1 |
| **Qazançı kənd həkim ambulatoriyası** | | |
| 98530090 | Həkim-stomatoloq | 1 |
| **Xanəgah kənd həkim ambulatoriyası** | | |
| 98525090 | Həkim-stomatoloq | 1 |
| **Xoşkeşin kənd həkim ambulatoriyası** | | |
| 98526090 | Həkim-stomatoloq | 1 |
| **Camaldın kənd həkim ambulatoriyası** | | |
| 98521090 | Həkim-stomatoloq | 1 |
| **Əbrəqunus kənd həkim ambulatoriyası** | | |
| 98531090 | Həkim-stomatoloq | 1 |
| **Ərəzin kənd həkim ambulatoriyası** | | |
| 98523090 | Həkim-stomatoloq | 1 |
| **Göydərə kənd həkim ambulatoriyası** | | |
| 98524090 | Həkim-stomatoloq | 1 |
| **Bənəniyar kənd həkim ambulatoriyası** | | |
| 98520090 | Həkim-stomatoloq | 1 |
| **Boyəhməd kənd feldşer-mama məntəqəsi** | | |
| 98571911 | Tibb bacısı | 1 |
| **Culfa Rayon Gigiyena və Epidemiologiya Şöbəsi** | | |
| 98599078 | Parazitoloq | 1 |
| 98599099 | Qida gigiyenası üzrə sanitar həkim | 1 |
| 98599110 | Uşaq yeniyetmə gigiyenası üzrə sanitar həkim | 1 |
| **Cəmi:** | | **30** |
| **Kəngərli rayonu üzrə:** | | |
| **"Kəngərli Rayon Mərkəzi Xəstəxanası" publik hüquqi şəxs** | | |
| 98601031 | Baş pediatr | 1 |
| 98601035 | Həkim-anestezioloq-reanimatoloq | 1 |
| 98601036 | Həkim-cərrah-travmatoloq | 1 |
| 98601039 | Həkim-infeksionist-ftiziatr | 1 |
| 98601046 | Həkim-cərrah | 1 |
| 98601048 | Həkim-dermatovenerolog | 1 |
| 98601049 | Həkim-endokrinoloq | 1 |
| 98601063 | Həkim-kardiorevmatoloq | 1 |
| 98601065 | Həkim-LOR | 1 |
| 98601067 | Həkim-metodist | 1 |
| 98601070 | Həkim-neonatoloq | 1 |
| 98601071 | Həkim-nevropatoloq | 1 |
| 98601073 | Həkim-oftalmoloq | 1 |
| 98601080 | Həkim-pediatr | 2 |
| 98601083 | Həkim-psixonarkoloq | 1 |
| 98601098 | Qəbul otağı üzrə həkim | 1 |
| **Çalxanqala kənd həkim ambulatoriyası** | | |
| 98622090 | Həkim-stomatoloq | 1 |
| **Qarabağlar kənd həkim ambulatoriyası** | | |
| 98624090 | Həkim-stomatoloq | 1 |
| **Xok kənd həkim ambulatoriyası** | | |
| 98620080 | Həkim-pediatr | 1 |
| **Təzəkənd kənd feldşer-mama məntəqəsi** | | |
| 98671910 | Mama | 1 |
| **Kəngərli Rayon Gigiyena və Epidemiologiya Şöbəsi** | | |
| 98699045 | Bakterioloq | 1 |
| 98699116 | Epidemioloq | 1 |
| **Cəmi:** | | **23** |

| | | |
|---|---|---|
| **Şahbuz rayonu üzrə:** | | |
| **"Şahbuz Rayon Mərkəzi Xəstəxanası" publik hüquqi şəxs** | | |
| 98701031 | Baş pediatr | 1 |
| 98701035 | Həkim-anestezioloq-reanimatoloq | 1 |
| 98701046 | Həkim-cərrah | 1 |
| 98701048 | Həkim-dermatovenerolog | 1 |
| 98701063 | Həkim-kardiorevmatoloq | 1 |
| 98701065 | Həkim-LOR | 1 |
| 98701067 | Həkim-metodist | 1 |
| 98701070 | Həkim-neonatoloq | 1 |
| 98701071 | Həkim-nevropatoloq | 1 |
| 98701073 | Həkim-oftalmoloq | 1 |
| 98701083 | Həkim-psixonarkoloq | 1 |
| 98701089 | Həkim-rentgenoloq | 1 |
| 98701091 | Həkim-terapevt sahə üzrə | 1 |
| **Keçili kənd həkim ambulatoriyası** | | |
| 98724090 | Həkim-stomatoloq | 1 |
| **Nursu kənd həkim ambulatoriyası** | | |
| 98729090 | Həkim-stomatoloq | 1 |
| **Şahbuzkənd kənd həkim ambulatoriyası** | | |
| 98730090 | Həkim-stomatoloq | 1 |
| **Külüs kənd həkim ambulatoriyası** | | |
| 98726090 | Həkim-stomatoloq | 1 |
| **Mahmudoba kənd həkim ambulatoriyası** | | |
| 98728090 | Həkim-stomatoloq | 1 |
| **Biçənək kənd həkim ambulatoriyası** | | |
| 98722090 | Həkim-stomatoloq | 1 |
| **Kolanı kənd həkim ambulatoriyası** | | |
| 98725090 | Həkim-stomatoloq | 1 |
| **Badamlı kənd həkim ambulatoriyası** | | |
| 98722090 | Həkim-stomatoloq | 1 |
| **Kükü kənd həkim ambulatoriyası** | | |
| 98732090 | Həkim-stomatoloq | 1 |
| **Şahbuz Rayon Gigiyena və Epidemiologiya Şöbəsi** | | |
| 98799045 | Bakterioloq | 1 |
| 98799099 | Qida gigiyenası üzrə sanitar həkim | 1 |
| **Cəmi:** | | **24** |
| **Sədərək rayonu üzrə:** | | |
| **"Sədərək Rayon Mərkəzi Xəstəxanası" publik hüquqi şəxs** | | |
| 98801031 | Baş pediatr | 1 |
| 98801035 | Həkim-anestezioloq-reanimatoloq | 1 |
| 98801046 | Həkim-cərrah | 1 |
| 98801053 | Həkim-ftiziatr | 1 |
| 98801054 | Həkim-funksional-diaqnostik (USM üzrə) | 1 |
| 98801058 | Həkim-infeksionist | 1 |
| 98801063 | Həkim-kardiorevmatoloq | 1 |
| 98801064 | Həkim-laborant | 1 |
| 98801065 | Həkim-LOR | 1 |
| 98801066 | Həkim-mama-ginekoloq | 2 |
| 98801067 | Həkim-metodist | 1 |
| 98801071 | Həkim-nevropatoloq | 1 |
| 98801073 | Həkim-oftalmoloq | 1 |
| 98801080 | Həkim-pediatr | 2 |
| 98801083 | Həkim-psixonarkoloq | 1 |
| 98801089 | Həkim-rentgenoloq | 1 |
| 98801091 | Həkim-terapevt | 3 |
| 98801106 | Təcili yardım üzrə həkim | 2 |
| 98801924 | Funksional diaqnostika üzrə tibb bacısı | 1 |
| 98801925 | Anestezist tibb bacısı | 1 |
| 98801926 | Sarğı üzrə tibb bacısı | 1 |
| 98801927 | Əməliyyat üzrə tibb bacısı | 1 |
| 98801928 | İnfeksion üzrə tibb bacısı | 1 |
| 98801929 | Böyük yaşlar üzrə tibb bacısı | 2 |
| 98801930 | Pediatriya üzrə tibb bacısı | 1 |
| 98801931 | Kabinə üzrə tibb bacısı | 1 |
| **Heydərabad kənd həkim ambulatoriyası** | | |
| 98802910 | Mama | 1 |
| 98802911 | Tibb bacısı | 1 |
| **Qaraağac kənd feldşer-mama məntəqəsi** | | |
| 98870910 | Mama | 1 |
| **Sədərək Rayon Gigiyena və Epidemiologiya Şöbəsi** | | |
| 98899045 | Bakterioloq | 1 |
| 98899904 | Dezinfektor təlimatçısı | 1 |
| 98899905 | Epidemioloq köməkçisi | 1 |
| 98899906 | Sanitar həkim köməkçisi | 1 |
| **Cəmi:** | | **39** |
| **Yekun:** | | **385** |

### *Bildiriş*

Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin "Naxçıvanterminalkompleks" Birliyi (VÖEN-0600012271) fəaliyyətini dayandırdığından ləğv olunur.

### *İtmişdir*

Qəhrəmamova Ayşən Ələsgər qızının adına 25.12.2015-ci il tarixli 108013001451 reyestr nömrəli torpaq sahəsinin planı və ölçüsü və 14.01.2016-cı il tarixli MH-0046377 nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

***

Şərur rayon Kürçülü kənd sakini Ağayev Tahir Bəhman oğlunun adına verilmiş JN-209 nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır

***

Babək rayonunun Sirab kənd sakini Həsənov Əbülfəz Şahvələd oğlunun adına verilmiş sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Gülcamal Tahirova

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1000. Sifariş № 154